Mətbuat üçün Məlumat No. 13/452
TƏXİRƏSALINMADAN DƏRC EDİLMƏLİDİR
15 noyabr, 2013-cü il

Beynəlxalq Valyuta Fondu
Vaşinqton, K.D. ABŞ 20431

**BVF missiyasının Azərbaycana səfərinin yekunlarına dair bəyanat**

Son iqtisadi prosesləri qiymətləndirmək və 2014-cü ilin mart ayına planlaşdırılan növbəti IV Maddə üzrə Məsləhətləşmələr missiyasına hazırlıq məqsədilə 8-15 noyabr, 2013-cü il tarixində Raja Almarzoqinin rəhbərliyi altında Beynəlxalq Valyuta Fondunun (BVF) missiyası Bakıya səfər etmişdir. BVF əməkdaşları yüksək vəzifəli dövlət rəsmiləri, habelə özəl sektor və diplomatik dairələrin nümayəndələri ilə müzakirələr aparmışlar.

Səfərin yekununda, cən. Almarzoqi aşağıdakı bəyanatı təqdim etmişdir:

"Neft hasilatı uğurla sabitləşdirildikdən sonra, yaxın müddətli dövrdə Azərbaycanın iqtisadi perspektivləri bütövlükdə əlverişlidir - 2013 və 2014-cü illərdə məcmu ümumdaxili məhsulun (ÜDM) artım tempi 5% proqnozlaşdırılır. Neft sektorundakı əlverişli proseslərin sayəsində ölkənin rahat xarici mövqeyi saxlanılacaqdır. İnflyasiya səviyyəsinin qiymətlərin nisbətən mülayim təzyiqləri fonunda 3% həddində tərəddüd edəcəyi proqnozlaşdırılır. Neftin qiymətinin düşməsi riski, əsasən, qlobal perspektivin pisləşməsi ehtimalından qaynaqlanır.

"2014-cü ilin büdcə layihəsi büdcənin konsolodasiyasının başlanmasına dair alqışlanan siqnal göndərir. Qeyri-neft büdcə kəsirində planlaşdırılan azalma fiskal mövqeni davamlı səviyyəyə tərəf yönəldəcəkdir və özəl sektorun fəaliyyəti üçün yer açacaqdır. Missiya rəsmi orqanlara dövlətin büdcədənkənar fəaliyyəti ilə əlaqədar olan artan fiskal riskləri idarə etməyi tövsiyə edir, habelə dövlət xərclərinin səmərəliliyinin artırılması və pensiya sistemində islahatların aparılması istiqamətində göstərilən səyləri dəstəkləyir.

"Azərbaycan Mərkəzi Bankı (AMB) faiz dərəcələrinin ötürülməsi mexanizmi və bank nəzarəti çərçivəsinin gücləndirilməsi, habelə istehlak kreditlərinin yüksək artım tempi ilə əlaqədar gördüyü tədbirləri davam etdirməlidir. Yaxın müddətli prioritetlərə bank aktivlərinin təsnifatı və təminat qaydalarının gücləndirilməsi və yeni makro-prudensial tədbirlərin görülməsi daxildir. Azərbaycan Beynəlxalq Bankının (ABB) kapitalizasiyası planı ciddi narahatçılıq yaradır – bu mənada, missiya bankın kapitalizasiyası ilə paralel, ABB-da beynəlxalq praktikaya uyğun şəkildə restrukturizasiya aparmağı tövsiyə edir.

"Biznes mühitinin daha da yaxşılaşdırılması yeni bazarlara çıxmağa kömək edəcəkdir və bunun üçün gömrük məcəlləsinin tətbiqi, Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzvlüyün yekunlaşdırılması, rəqabətdə baryerlərin yüngülləşdirilməsi və bütövlükdə idarəetmənin təkmilləşdirilməsi istiqamətində iş aparılmalıdır. Missiya yoxlamalarla əlaqədar qəbul edilən

yeni qanunu alqışlayır və rəsmi orqanların bank və sığorta sektorlarına nəzarətin qanunun əhatə dairəsindən çıxarılması planını dəstəkləyir.

“Missiya qonaqpərvər münasibətə və konstruktiv müzakirələrə görə səlahiyyətli orqanlara öz minnətdarlığını bildirir”.